# Allah və Rəsulu şərab, ölü əti, donuz və bütlərin satışını haram etmişdir

Cabir ibn Abdullahdan (Allah ondan və atasından razı olsun) rəvayət edilir ki, o, Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) fəth ilində Məkkədə olarkən belə dediyini eşitdi: "Allah və Rəsulu şərab, ölü əti, donuz və bütlərin satışını haram etmişdir", Deyildi: Ey Allahın Rəsulu, ölü heyvanın piyi necə? Çünki, onunla gəmilər rənglənir, dərilər yağlanır, insanlar onunla çıraqlarını yandırır. O (Allahın salavatı və salamı onun üzərinə olsun) dedi: Xeyr, o (satışı) haramdır", sonra davam edərək dedi: "Allah yəhudiləri məhv etsin. Allah onlara heyvanların piyini haram etdikdə, onlar onun yağını yığıb, sonra satdılar və pulunu yedilər".

[Səhih] [Müttəfəqun aleyhi(əl-Buxari və Musliminsəhih gördüyü hədislər)]

Cabir ibn Abdullah (Allah ondan və atasından razı olsun) Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) fəth ilində Məkkədə ikən belə dediyini eşitdi: "Allah və Rəsulu şərab, ölü ət, donuz və bütləri satmağı haram etdi", Deyildi: Ey Allahın Rəsulu, leş heyvanın piyini satmaq bizə halaldırmı?Çünki, onunla gəmilər rənglənir, dərilər yağlanır və insanlar onunla çıraqlarını yandırır. O (Allahın salavatı və salamı onun üzərinə olsun) dedi: Xeyr, satışı haramdır", sonra davam edərək dedi: Allah yəhudiləri məhv etsin və onlara lənət etsin. Allah onlara heyvanların piyini haram etdikdə, onlar onu əridib, sonra yağını satdılar və pulunu yedilər.



النجاة الخيرية
ALNAJAT CHARITY
لجنة الدعوة الإلكترونية
EDC E-Da'wah Committee